Ədalət 2019.- 10 oktyabr.- S.4.

# Böyük ziyalı, sadə və səmimi insan

## (Akademik İsa Həbibbəylinin anadan olmasının 70 illiyinə)

**1975-ci ilin payız aylarının birində ilk dəfə İsa müəllimi Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dənizində görmüşdüm. Həmin il mən XIX əsr Azərbaycan Ədəbiyyatı şöbəsinin aspiranturasına qəbul olmuşdum. Elmi rəhbərim professor Kamran Məmmədov idi. Yadımdadır o, mənə söhbətlərinin birində dedi ki, mənim çox istedadlı İsa adlı bir dissertantım var. Arzu edirəm ki, onun kimi çalışqan olmaqla sənə tövsiyə olunan elmi ədəbiyyatları səbrlə araşdırıb müəyyən nəticə əldə edə biləsən.**

İsa müəllimlə növbəti görüşlərimin birində öyrəndim ki, o əslən Naxçıvandan olmaqla, həmin şəhərdəki Naxçıvan Dövlət Universitetində Azəbaycan dili və Ədəbiyyatı kafedrasında müəllim kimi fəaliyyət göstərir.

Onun namizədlik dissertasiyası "XX əsrin əvvəlləri Azərbaycan romantik lirikası" mövzusunda idi. Mən dissertasiyanın şöbədə keçən müzakirəsində iştirak etməsəm də, eşitdiyimə görə bu mövzunun namizədlik dissertasiyası həcmindən daha geniş olması bəhanə gətirilərək elmi işin yenidən işlənməsi məsləhət olunmuşdu. Halbuki müəyyən ixtisarlar edilməklə dissertasiyanı növbəti mərhələyə buraxmaq olardı.

Ancaq 3-3 ay keçmədi ki, İsa müəllim işini daha mükəmməl halda yenidən ortalığa qoyaraq zəhmətkeş və istedadlı bir insan olduğunu sübut edə bildi.

Həyatda doğru deyildiyi kimi xeyirlə şərin, bədxahlıqla xeyirxahlığın daim mübarizəsi gedir. Əsl alim, yaradıcı insan odur ki, qarşıya çıxan çətinlikləri dəf etməyə, onlara sinə gərməyə mətanətlə bacara bilsin. Bəli, İsa müəllimdə bu cür mübariz və yorulmaq bilməyən keyfiyyətlər gəncliyində də olmuş, hazırda da davam etməkdədir.

İsa müəllimin onlarla elmi monoqrafiyası, elmi rəhbərliyi ilə müdafiə edən çoxlu dissertant və doktorantları var. O, yüzlərlə kitabın elmi redaktoru, çoxlu elmi və bədii kitablara yazılmış ön sözlərin və resenziyaların müəllifidir.

Onsuz da respublikamızda tanınmış ədəbiyyatşünas və tənqidçilər onun çoxcəhətli yaradıcılığından yubiley ərəfəsində ətraflı yazacaqlar. Mən ancaq İsa müəllimlə bağlı müəyyən xatirələri, onun bir insan kimi əlçatmaz keyfiyyətlərini oxucuların diqqətinə çatdırmaq missiyasını yerinə yetirmək istəyirəm.

Yaxşı yadımdadır 1983-cü ilin qışı idi. N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi şurası namizədlik işimə əlavə rəy vermək üçün elmi müəssisə kimi Naxçıvan Dövlət universitetini məsləhət bilmişdi. Universitetin Azərbaycan dili və ədəbiyyatı kafedrasının alimlərinin rəyini almaq üçün Naxçıvana getməli idim. Burada tanıdığım,



şübhəsiz ki, İsa müəllim idi. Qatardan düşün "Tələbə şəhərciyi" deyilən məkana yollandım. Şaxta qılınc kimi kəsirdi. Qışın bu oğlan çağında Naxçıvanda 12-125 dərəcə şaxta var idi.

Soyuqlu hava olmasına baxmayaraq kafedrada İsa müəllimi tapdım. Niyyətimi ona çatdırandan sonra mehmanxanaya getmək istədiyimi bildirdim. Mən 2-3 günə kimi rəyi alıb geri qayıtmalı idim. Ancaq İsa müəllim yaxşı mənada mənə söz deməyə imkan verməyərək əvvəlcə məni evinə apardı. Yeyib içməkdən sonra dedi ki, axşamı qatarla geri qayıdarsan.

Onsuz da mən müəyyən işimlə əlaqədar 3 -4 günə kimi Bakıya gələcəyəm və sənin elmi işinə rəyi öz əlimlə gətirib şöbənizə təhvil verəcəyəm. Həmin vaxtlar İsa müəllim Universitetdə Azərbaycan dili və Ədəbiyyatı kafedrasında dosent kimi çalışırdı. Kafedranın müdiri isə mərhum professor Yavuz Axundov idi.

Beləliklə, mən bu xeyirxah insanın təkidi ilə həmin gecə qatarla geri qayıtmalı oldum. Bileti də məndən xəbərsiz alıb getmək ərəfəsində mənə uzadaraq yaxşı yol - dedi.

Mən Füzulidə məktəb direktoru, partiya sovet orqanlarında işlədiyim zaman İsa müəllimin əsl ziyalı, vətənpərvər və xeyirxah insan olmasından həm şəhərdə, həm də ətraf kəndlərdəki dost-tanışlara söhbət açmışdı. Bundan istifadə edən məni yaxından tanıyan və hətta tanımayan bəzi valideynlər Naxçıvanda ali məktəbdə oxuyan uşaqlarına imtahandan qeyri-kafi qiymət almamaları və ya kəsrləri olan zaman İsa müəllimin yanına üz tutaraq bu sətrlərin müəllifinin qohumu və dostu olduğunu deyərək müsbət qiymət alırmışlar. Bütün bunları mən neçə illər keçəndən sonra öyrəndim. Bir sözlə, İsa müəllim Füzulidən ona tanışlıq verənlərdən məni soruşar, sonra həmin tələbələrə müsbət qiymət verməyi əsirgəməzdi. Bu, onun həm müəllim, həm də rektor olduğu zamana təsadüf edirdi.

İsa müəllim təkcə mənə yox, yüzlərlə ziyalılara və sadə insanlara qarşı öz xeyirxahlığı, səxavəti və insanlığı ilə nümunə olmağı bacarmışdır. Onu tanıyan və onunla təmasda olan hansı alimi, tədqiqat işi ilə məşğul olan insanları danışdıranda İsa müəllimin təmənnasız xeyirxahlığından ürək dolusu danışırlar. İnsanlara çətin anlarda əl uzatmaqla, köməklik göstərməklə Akademik İsa Həbibbəyli sağkən özünə möhtəşəm bir abidə yaratmıdır. Mən respublikada çoxlu tədqiqatçı - alimlər tanıyıram ki, onlar çoxlu kitab müəllifi olmalarına baxmayaraq, elmdə yüksək zirvələr fəth etsələr də, xalq tərəfindən sevilmirlər. Ancaq sadə müəllimlikdən akademikliyə kimi zirvəni fəth edən İsa Həbibbəylinin alimliyi ilə xeyirxahlığının qırılmaz vəhdəti bir küll halında onu özünəməxsus edir, başqalarından fərqləndirir.

Bəzən 5-6 kitabı çıxanlar özündən müştəbehlik edir, ətrafındakılara yuxarıdan aşağı baxırlar. Halbuki, sağkən çabalayan bələlərini öləndən sonra heç kim yada salmır, həyat əbədi olaraq onları tarixin toz basmış arxivinə atır. Çevrəsindəki insanlara dost münasibəti bəsləyən, insanlara kömək əli uzatmaqdan yorulmayan İsa müəllim həyatın mənasını səxavətlilikdə, xeyirxahlılıqda görür.

Alimliklə insanlığın vəhdətini özündə birləşdirmək, şəxsiyyət kimi sadə və səmimi olmaq hamıya nəsib olmur. Fikrimcə, bu müsbət keyfiyyətlər həm də nəsildə-kökdən, valideyn tərbiyəsindən irəli gələn bir anlamdır ki, İsa müəllimdə öz təcəssümünü tapmışdır. Burada bir rəvayəti xatırlamaq yerinə düşər. Bir gün səhralığa rast gələn bir nəfər yolçu mənzil başına çatmaq üçün çox yollar gedir. Yorğunluq, aclıq və susuzluq onu əldən salır. Nəhayət, o, qarşıda nəhəng bir ağac və şırıltı ilə axan bulağı görür. Ağacın budaqları ətrafa kölgə salmış, bulaq suyunun sərin olmasına şərait yaratmışdır. Yolçu bu sərin sudan doyunca içib, ağac budaqlarının ətrafa yaylan kölgəsi altında xeyli dincələrək özünə gəlir. O, əlini uca tanrıya açaraq: "Ey rəbbim, mənə göstərdiyin bu yaxşılığa görə sənə minnətdaram" - deyir. Bunun görəsən sirri nədir? Yolçu düşünür ki, yəqin onun iri kökü var ki, ətrafa bu qədər sərinlik gətirib. Ağacın torpağın dərinliyinə işləmiş kökünü görən yolçu bu qənaətə gəlir ki, ağacın budaqlarının bu cür torpağa işləmiş kökü olmasaydı, budaq bu qədər kölgəli olmazdı. Yolçu yenidən üzünü Allah dərgahına tutaraq belə bir dua edir: "Ey ağac, desəm həmişə kölgəli olasan, onsuz da kölgəlisən, ey bulaq, suyun sərin və bol olsun, onsuz da suyun bol və sərindir. Bircə sənə onu arzulayıram ki, həmişə bu səviyyədə qal, insanlara çətinlikdə dayaq ol!".

Yəqin hörmətli oxuyucular rəvayətdəki hikməti yaxşı başa düşəcəklər. Akademik İsa Həbibbəyli də öz söy-kökünə bağlı olan əsl azərbaycanlıdır. O, bu vaxta kimi arzuladığı bütün zirvələrə çata bilib. İsa Həbibbəyli Əməkdar elm xadimi, Milli Məclisin deputatı və elm təhsil komissiyasının sədri, Milli Elmlər Akademiyasının vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru kimi vəzifə daşıyaraq gərgin və məsuliyyətli bir missiyanı yerinə yetirir.

Bircə bizə o qalır ki, İsa müəllimə Allahın verdiyi ömrü sağlam yaşamağı, xalqına, vətəninə sədaqətlə xidmət etmək yoluna uğurlar arzulayaq.

**70 yaşın mübarək, İsa müəllim!**

**Ehtiram Səfərov**
**filologiya üzrə fəlsəfə doktoru**